

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 sentyabr 2026-cı il №60 (3062) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana işgüzar səfəri

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) tədbirlərində iştirak etmək üçün avqustun 31-də Qırğız Respublikasına işgüzar səfərə gəlib.***



AZƏRTAC xəbər verir ki, “Manas” Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Qırğızıstan Nazirlər Kabinetinin sədri - Prezident Administrasiyasının rəhbəri Adılbek Kasımaliyev qarşılayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bişkekdə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısı çərçivəsində avqustun 31-də Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüş keçirib.

Liderlər 2025-ci il 8 avqust tarixli Vaşinqton Sülh Zirvə görüşünün, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Prezident İlham Əliyevin və Baş nazir Nikol Paşinyanın imzaladıqları Birgə Bəyannamənin, həmçinin “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş”in razılaşdırılmış mətninin paraflanmasının tarixi əhəmiyyətini vurğulayıblar.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

**1.** 2008-ci ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1996–2007-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikası Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2026-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2.** “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2026-cı il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 2 sentyabr 2026-cı il

## Fövqəladə Hallar Nazirliyi, Müdafiə Nazirliyi və Daxili İşlər Nazirliyinin birgə məlumatı

*Xəbər verildiyi kimi, ötən gecə Goranboy rayonu, Nizami kəndi yaxınlığında yerləşən sursat anbarında yanğınla müşayiət olunan partlayış baş verib.*

*Dərhal Fövqəladə Hallar və Müdafiə nazirliklərinin müvafiq qüvvələri tərəfindən Daxili İşlər Nazirliyi və Goranboy rayon İcra Hakimiyyəti ilə əlaqəli şəkildə zəruri və təxirəsalınmaz tədbirlərin görülməsinə başlanılıb və vəziyyət nəzarət altına alınıb.*

*Hadisə ilə əlaqədar təhlükəsizlik tədbirləri çərçivəsində yaxınlıqdakı insanlar təxliyə edilib.*

*Xəsarət alan olmayıb.*

## Rabitəsiz idarəetmə yoxdur, idarəetməsiz isə qələbə

Müasir döyüşlərdə qələbəni təmin edən əsas amillərdən biri də fasiləsiz və etibarlı rabitədir. Əmrlərin vaxtında çatdırılması, bölmələr arasında koordinasiyanın təmin edilməsi, məlumatların operativ ötürülməsi və təhlükəsizliyin qorunması birbaşa rabitə sisteminin dayanıqlığından asılıdır. Bu baxımdan rabitəçilər döyüş meydanında görünməsələr də, hər bir uğurlu əməliyyatın arxasında dayanan mühüm qüvvələrdən biridir.

Rabitə ordunun idarəetmə sistemində xüsusi əhəmiyyət daşıyır. Əmrlərin, məlumatların və tapşırıqların vaxtında, dəqiq və təhlükəsiz ötürülməsi hərbi idarəetmənin əsas şərtlərindəndir. Rabitənin fasiləsizliyi komandanlıqla bölmələr arasında etibarlı əlaqə yaradaraq qəbul edilən qərarların vaxtında icrasına imkan verir.

Rabitənin əhəmiyyəti xüsusilə döyüş əməliyyatları zamanı özünü daha qabarıq göstərir.

Planlaşdırmadan başlayaraq əməliyyatın icrasına qədər bütün mərhələlərdə fasiləsiz informasiya mübadiləsinə ehtiyac duyulur. Artilleriya dəstəyi, pilotsuz uçuş aparatlarının idarə olunması, kəşfiyyat məlumatlarının ötürülməsi və bölmələrin koordinasiyası zamanı rabitənin operativliyi mühüm rol oynayır. Bəzi hallarda saniyələr belə həlledici əhəmiyyət daşıyır. Əlaqənin hər hansı səbəbdən pozulması isə bölmələr arasında koordinasiyanın zəifləməsinə, əmrlərin gecikməsinə və idarəetmənin çətinləşməsinə səbəb ola bilər. Belə hallarda rabitəçilərin hazırlığı və ehtiyat imkanlarından istifadə bacarığı ön plana çıxır. Əsas rabitə xəttində problem yarandıqda alternativ kanalların, ehtiyat rabitə vasitələrinin və mobil sistemlərin işə salınması əlaqənin bərpasına imkan verir. Müasir ordu anlayışında rabitə artıq yalnız əmrlərin ötürülməsi vasitəsi deyil.

**(Ardı 4-cü səhifədə)**

## Əsrlərdən boylanan yaddaşımız

Tarix təkcə səhifələrdə yaşayan rəqəmlər, yazılar deyil, tarix bizim keçmişimiz, qazandığımız zəfərlər, keçirdiyimiz məğlubiyyətlər, əldə etdiyimiz təcrübələr, milli kimliyimiz, mənəviyyatımızdır. Dağların hər oyuğunda, hər qarışında bir həyat hekayəsi, insanı keçmişin əsrarəngiz qoynuna aparan dastan gizlənir. Dağların üzərindəki hər oyuq bir sənətkarın əl izi, ürək döyüntüsü, tarixin daş yaddaşıdır. Abidələrimiz, qalalarımız keçmişin sükutundan bu günə boylanan, keçmişdən indiyə körpü salan xalqın ruhudur. Hara getsək, dünyanın hansı ölkəsində olsaq da ilk olaraq keçmişin izini daşıyan, bizə tarixi anladan abidələri, türbələri, qalaları axtarırıq. Sanki əsrlərin səsini onlarda duymaq, hər parçasında hadisələrin nəfəsini hiss etmək istəyirik. Tarixin güzgüsü olan bu daş kitabələrə baxdıqca onları ərsəyə gətirən sənətkarların qabiliyyətinə, bacarığına, təfəkkürünə heyran qalırsan.

Azərbaycan bütün dövrlərdə abidələrinin gözəlliyi, özünəməxsusluğu ilə səyyahların diqqətini cəlb edib. Qüdrətli Atabəylər dövründə sənətkarlıq, ticarət, elm, ədəbiyyat sürətlə inkişaf edir. Dahi şəxsiyyətlərin çoxunun yaradıcılığı bu dövrə təsadüf edib: Qətran Təbrizi, Nizami Gəncəvi, Xaqani Şirvani, Məhsəti Gəncəvi və s. öz yaradıcılıqları ilə adlarını bu günədək qoruyub saxlamışlar.

**(Ardı 3-cü səhifədə)**

## ANAMA: Ötən ay 7 min hektardan çox ərazi mina və partlayıcılardan təmizlənib

*<u>İşğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunan qurumlar tərəfindən avqustda icra edilən əməliyyatlara dair məlumat açıqlanıb.</u>*

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən ay ərzində piyada əleyhinə 514, tank əleyhinə 121 mina və 2724 digər partlayıcı sursat aşkarlanaraq zərərsizləşdirilib.

Avqust ayında ümumilikdə 7 min 568,9 hektar ərazi mina və digər partlayıcı sursatlardan təmizlənib.

# Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana işgüzar səfəri

**(Əvvəli 1-ci səhifədə)**

Azərbaycanın neft məhsullarının Ermənistana ixracı, üçüncü ölkələrdən taxıl və digər əmtəənin Azərbaycan ərazisi ilə Ermənistana tranziti, həmçinin iki ölkə arasında ticarət əlaqələrinin qurulması sülh dividendlərinin mühüm əyani təzahürü kimi qeyd edilib.



Liderlər, həmçinin işgüzar dairələr arasında təmasları alqışlayıb və qarşılıqlı faydalı iqtisadi, ticarət və enerji əməkdaşlığının daha da genişləndirilməsi imkanları barədə fikir mübadiləsi aparıblar.

Tərəflər Azərbaycan ilə Ermənistanın dövlət sərhədinin delimitasiyası üzrə müvafiq dövlət komissiyalarının mühüm rolunu qeyd edib, onların iki ölkə arasında əldə olunmuş razılaşmalara uyğun olaraq, öz işlərini davam etdirməsinin vacibliyini vurğulayıblar. Liderlər Vaşinqton Sülh Zirvə görüşünün mühüm nəticələrindən biri olan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) həyata keçirilməsi ilə bağlı növbəti praktiki addımlar barədə müzakirə aparıb və TRIPP boyunca bağlantı layihələrinin əhəmiyyətini qeyd ediblər.



Liderlər parlamentarilər və vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı etimadın gücləndirilməsi və daha geniş sülh gündəliyinin dəstəklənməsinə verdikləri töhfələrini qeyd edərək, onların iştirakı ilə etimad quruculuğu üzrə təmasları müsbət dəyərləndiriblər.

Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan birbaşa ikitərəfli təmaslar vasitəsilə davamlı sülhün daha da möhkəmləndirilməsi, dövlətlərarası münasibətlərin normallaşdırılması prosesinin irəlilədilməsi və bağlantıların gücləndirilməsi istiqamətində addımları davam etdirmək barədə razılığa gəliblər.

* * *

Avqustun 31-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü olub.

Dövlətimizin başçısı Qazaxıstan Respublikasının yeni parlamentinə - Qurultaya keçirilən ilk seçkilərin uğurla baş tutması münasibətilə təbriklərini çatdıraraq qeyd edib ki, bu, Prezident Kasım-Jomart Tokayevin rəhbərliyi ilə ölkədə aparılan genişmiqyaslı islahatlara Qazaxıstan xalqının dəstəyinin növbəti nümunəsi idi.

Qazaxıstan Prezidenti dövlətimizin başçısının göndərdiyi təbrik məktubuna və Azərbaycandan olan müşahidəçilərin bu seçkilərdə fəal iştirakına görə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycanla Qazaxıstan arasında strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olundu, münasibətlərimizin dərinləşdirilməsində yüksək səviyyədə qarşılıqlı səfərlərin və təmasların önəmi vurğulanıb. Nəqliyyat-logistika məsələləri müzakirə olunub, Orta Dəhlizin əhəmiyyətinə toxunulub, bu istiqamətdə Azərbaycanla Qazaxıstan arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Dövlət başçıları Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin sammitinin Bakıda keçiriləcəyinə də toxunublar.

Söhbət zamanı gələcək təmaslar və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

* * *

Avqustun 31-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla görüşü olub.

Məsud Pezeşkian dövlətimizin başçısı ilə görüşləri və telefon danışıqlarını məmnunluqla xatırladı, İranın üzləşdiyi bu çətin vəziyyətdə Prezident İlham Əliyevin mövqeyinin, nümayiş etdirdiyi dəstəyin, verdiyi başsağlığının, həmçinin Azərbaycan tərəfindən göstərilən humanitar yardımın İran dövləti və xalqı tərəfindən çox yüksək qiymətləndirildiyini vurğuladı, bütün bunlara görə bir daha minnətdarlığını bildirdi.



Əlaqələrimizin inkişaf etdirilməsi üçün çox yaxşı imkanların olduğunu deyən İran Prezidenti Azərbaycanla bütün sahələrdə münasibətləri genişləndirməkdə maraqlı olduqlarını qeyd edib.

Məsud Pezeşkian ölkələrimiz arasında əlaqələrin qardaşlıq və dostluq xarakteri daşıdığını vurğulayaraq, İranın bütün qonşu ölkələrlə yaxşı münasibətlərə malik olmaq niyyətində olduğunu deyib.

Dövlətimizin başçısı da öz növbəsində İranın üzləşdiyi bu şəraitdə Azərbaycanın yardımının qardaşlıq nümunəsi olduğunu vurğulayıb.

Prezident İlham Əliyev deyib ki, ölkəmiz İranla bağlı yaranmış vəziyyətin sülh və danışıqlar yolu ilə həllinin tərəfdarıdır.

Söhbət zamanı Azərbaycanla İran arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

* * *

Sentyabrın 1-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub.

Söhbət zamanı Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin qardaşlıq və strateji müttəfiqliyə əsaslandığı vurğulanaraq, bütün istiqamətlər üzrə əlaqələrin daha da genişlənməsindən məmnunluq ifadə olunub.



Ölkələrimizin "Bir millət, iki dövlət" prinsipinə uyğun olaraq həm xoş, həm də çətin günlərdə daim bir-birinin yanında olduğu xüsusi qeyd edilib.

Görüşdə regional sülhün və sabitliyin daha da möhkəmləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Dövlət başçıları müttəfiqlik əlaqələrimizin perspektivlərini, regional gündəmi və qarşılıqlı maraq doğuran digər məsələləri də müzakirə ediblər.

* * *

Qırğız Respublikasının paytaxtı Bişkek şəhərində "ŞƏT plyus" formatında görüş keçirilir.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak etmək üçün Bişkekdəki "Irıs Ordo" Konqres Mərkəzinə gəlib.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını salamlayıb.

Sonra "ŞƏT plyus" formatında keçirilən görüşün iştirakçıları birgə foto çəkdiriblər.

* * *

Sentyabrın 1-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva Qırğız Respublikasının birinci xanımı Ayqul Japarova, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan, Özbəkistan Respublikasının birinci xanımı Ziroat Mirziyoyeva və Çin Xalq Respublikasının birinci xanımı Pen Liyuan ilə birlikdə Bişkekdə "Ala-Arça" Dövlət iqamətgahında olub.

Qırğız Respublikasının birinci xanımı Ayqul Japarova Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanı və digər birinci xanımları qarşıladı.

"Ala-Arça" Dövlət iqamətgahında təşkil edilən mədəni proqram çərçivəsində birinci xanımlar Qırğızıstanın xalq dekorativ-tətbiqi sənət ustalarının əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Ekspozisiya fəxri qonaqları qırğız xalqının zəngin mədəni irsi, özünəməxsus ənənələri, əsrlər boyu formalaşmış sənətkarlığı və milli koloriti ilə tanış edir.

Sərgidə, həmçinin keçədən hazırlanmış məmulatlar, ənənəvi məişət əşyaları, xalq sənətkarlarının əsərləri və qırğız dekorativ-tətbiqi sənətinin müxtəlifliyini əks etdirən digər əl işləri təqdim olunur.

Qonaqlar üçün konsert proqramı hazırlanıb. Yaradıcılıq kollektivləri və ifaçılar milli mədəniyyətin gözəlliyini, ənənələrin zənginliyini, qırğız xalqının qonaqpərvərliyini əks etdirən musiqi və rəqs nömrələri təqdim ediblər.

**(Ardı 3-cü səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana işgüzar səfəri




(Əvvəli 2-ci səhifədə)

Sentyabrın 1-də Qırğız Respublikasının paytaxtı Bişkek şəhərində "ŞƏT plyus" formatında görüş keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak etmək üçün Bişkekdəki "Iris Ordo" Konqres Mərkəzinə gəlib.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını salamlayıb.

Sonra "ŞƏT plyus" formatında keçirilən görüşün iştirakçıları birgə foto çəkdiriblər.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli Sadır Nurqojoyeviç.
Hörmətli dövlət başçıları.
Xanımlar və cənablar.

Əvvəlcə Qırğız Respublikasının Prezidentinə dəvətə və qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.

Qardaş Qırğızıstana yenidən səfər etməkdən məmnunam. Bir ay öncə dövlət səfərim zamanı müttəfiqlik münasibətləri haqqında Müqavilə imzalandı. Həmin tarixi sənəd Azərbaycanla Qırğızıstan arasında münasibətləri ən yüksək səviyyəyə qaldırdı.

Mən fürsətdən istifadə edərək ölkənin sosial-iqtisadi inkişafında əldə edilmiş uğurlar, onun beynəlxalq aləmdə nüfuzunun gücləndirilməsi münasibətilə Prezidenti və Qırğızıstan xalqını təbrik etmək istərdim.

Qırğızıstanın 2027-2028-ci illər üçün BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi beynəlxalq ictimaiyyətin Qırğızıstanın siyasətinə verdiyi dəstəyi nümayiş etdirir.

Bir ildən bir az çox müddət əvvəl Azərbaycan və Ermənistan sülh sazişinin mətnini paraflayaraq 30 illik münaqişəyə son qoydular. Beləliklə, çoxillik münaqişə zonası olmuş Cənubi Qafqaz bölgəsi sülh zonasına çevrilməkdədir.



BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi 30 ildən sonra, üç il əvvəl icra edildi. Azərbaycan artıq Ermənistana neft məhsulları tədarük edir və üçüncü ölkələrin yüklərinin tranzitini təmin edir. Ermənistanla birlikdə qarşılıqlı ticarətin həcminin artırılması, onun nomenklaturasının genişləndirilməsi və yeni yerüstü nəqliyyat kommunikasiyalarının yaradılması üzərində çalışırıq. Lakin təəssüf ki, BMT bu qətnamələrin icrasında heç bir rol oynamayıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tamamilə özü bərpa edib. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qısa müddətdə icrası üçün müvafiq mexanizmlərin hazırlanması tələb olunur. Bu həyata keçirilərsə, BMT-nin nüfuzunun və təşkilatın münaqişələrin nizamlanmasındakı rolunun artmasına xidmət edər. Son vaxtlara qədər dörd il ərzində Qoşulmama Hərəkatına rəhbərlik etmiş Azərbaycan bundan sonra da beynəlxalq məsələlərdə çoxtərəflilik prinsiplərinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək.

Diqqətinizə görə minnətdaram.

**Qırğızıstan Prezidenti Sadır Japarov:** Hörmətli İlham Heydər oğlu, bu qədər əhatəli çıxışınıza görə Sizə çox təşəkkür edirəm. Məhz belə geniş dialoq ədalətli, çoxqütblü dünyanın formalaşdırılması üçün zəruridir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına işgüzar səfəri sentyabrın 1-də başa çatıb.

"Manas" Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Qırğızıstan Nazirlər Kabinetinin sədri - Prezident Administrasiyasının rəhbəri Adılbek Kasımaliyev yola salıb.

# Əsrlərdən boylanan yaddaşımız

(Əvvəli 1-ci səhifədə)

Yalnız Şərqdə deyil, Qərb dünyasında da öz sənəti ilə seçilən məşhur şəxsiyyətlərdən biri də Əcəmi Əbubəkr ibn Naxçıvanidir. O, orta əsrlər dövründə Azərbaycanın dahi memarı kimi şöhrət qazanmışdır. Əcəminin yaradıcılığı gələcəkdə də bir çox azərbaycanlı və dünya memarları üçün ilham mənbəyi olacaqdır. Memarı olduğu abidələr öz zəngin kompozisiyası, ifadə etdiyi mənaya görə diqqəti cəlb edir. Əcəmi ömrünü Azərbaycan Atabəylər dövlətinin ərazisində, atabəy Şəmsəddin Eldənizin dövründə yaşamışdır. Bu dövlətin mərkəz şəhərlərindən biri Naxçıvan idi. Tarix öz yaddaşında Əcəminin həyatı haqda heç nə saxlamayıb. Dahi memar bunu öncədən gördüyündən öz şah əsəri Möminə xatun türbəsi üzərində belə yazmışdı: "Biz gedəriyik. Dünya əbədi qalandır...Biz ölərik – bu, bizdən xatirə qalar. İlahi, bəd nəzərdən uzaq elə". Dünyanı dərindən dərk edən, istedadı ilə dünyaya səs salan memar bilirdi ki, insan ömrü qısa, sənət əsərləri isə əbədidir. Ona görə də tikdiyi qalalarda yazdığı sözlərlə, ştrixlərlə öz izini qoymağa çalışırdı. Yaxın və Orta Şərqin dahi memarı kimi şöhrət qazanmış, "şeyx-ül-mühəndis" (mühəndislərin başçısı) ləqəbini almışdı. Böyük sənətkar görənləri heyran edən bənzəri olmayan yeni ülgülər, bənzərsiz naxış və cizgilər tapırdı. Dünyaca məşhur səyyahlar, sənətkarlar onun əl işlərinə heyranlıqlarını gizlədə bilməyiblər. Öz məharəti ilə dövrünün memarlıq məktəbini yaratmışdır. Bu məktəbin təsiri Orta Şərq ölkələrinə qədər gedib çıxmışdır. Bu ölkələrdə tikilən abidələrdə Əcəmi sənətinə xas xüsusiyyətlər öz əksini tapmışdır. Tədqiqatçılar hətta ondan 300 il sonra yaşamış böyük Türkiyə memarı Memar Sinanın əsərlərində dahi ustadın təsirini aşkar ediblər. Əcəmi Naxçıvaninin barmaqlarının istedadından yaranmış Yusif ibn Küseyir və Möminə xatun türbələri onun bütün zamanların bənzərsiz sənətkar olduğunun dünyaya sübutudur. Möminə xatun türbəsi, el arasında Atabəy Gümbəzi kimi məşhur olan və Atabəy Şəmsəddin Eldənizin həyat yoldaşı, Məhəmməd Cahan Pəhləvanın anası Möminə xatunun şərəfinə 1186-cı ildə tikilən görkəmli abidədir. Möminə xatun Azərbaycan Atabəylər dövlətinin yaranması, möhkəmləndirilməsi üçün çox böyük işlər görmüşdür. O, 1175-ci ildə dünyasını dəyişir. Türbə Atabəylər Memarlıq Kompleksinin tərkib hissəsi olub, monumentallığı, iri ölçüləri ilə diqqəti cəlb edir. Əsrlərdən bəri rəvayətə görə memardan abidəni nə vaxta tikib qurtardığını soruşanda "uzun müddət" cavabını verib. Bu müddətin on il olmasına qərar verilmişdir. Önəmli olan onun memarlıq xüsusiyyətləri və gözəlliyidir. Abidənin ümumi hündürlüyü 34 metr olub, lakin sonralar xarici örtüyünün 8 metrlik hissəsi dağıldığından hazırda hündürlüyü 26 metrdir. Türbə yeraltı və yerüstü hissələrdən ibarətdir. Bacarıqlı memar özündən sonra nadir sənət nümunəsi qoyub getmişdir. Zərif və yüksək bədii təfəkkürün məhsulu olan abidənin tikilən naxışlarda qadın ucalığını, qadın möhtəşəmliyini duyuruq. Möminə xatun türbəsi ümumən İslam memarlığında ən incə kompozisiyası, estetik mükəmməlliyi ilə seçilən ölməz sənət incilərindən biridir. Bu abidədə geniş riyazi biliyə, zəngin yaradıcılıq təcrübəsinə əsaslanan mühəndislik qabiliyyəti nümayiş etdirilib. Mədəniyyətimizdə bu türbə varlığı ilə yerləşdiyi bölgəni tanıdan, ona şöhrət gətirən, heç vaxt köhnəlməyən abidələr sırasında yaddaşlarda və tariximizin səhifələrində əbədi qalacaq. Bu türbə tarix və mədəniyyət yadigarımız olduğundan əbədi həqiqətin qorunması və təbliği baxımından mühüm əhəmiyyət daşıyır. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Əcəmi Naxçıvaninin 850 illik yubileyi 1976-cı ildə Azərbaycanda təntənəli şəkildə qeyd edilmişdi. Ondan 25 il sonra 1999-cu il oktyabrın 14-də isə Ümummilli Lider Heydər Əliyev milli memarlığımızın bu möhtəşəm abidəsini ziyarəti zamanı demişdi: "Bu abidənin qiyməti yoxdur. Möminə xatun türbəsi XII əsrdə, orta əsrlərdə Azərbaycanın nə qədər zəngin mədəniyyəti olduğunu, doğrudan da, böyük memarlıq məktəbi olduğunu göstərir. Bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün, bəlkə, daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir". Möminə xatun türbəsi 2001-ci ildə dünya əhəmiyyətli memarlıq abidəsi kimi dövlət mühafizəsinə götürülüb. 1998-ci ildə isə UNESCO-nun Ümumdünya irsinin İlkin Siyahısına daxil edilib. Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə milli-mədəni irsimizin qorunması və yaşadılması dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib. Tarixi-memarlıq abidələrinin bərpası, görkəmli şəxsiyyətlərin yubileylərinin dövlət səviyyəsində qeyd olunması, mədəni irsimizin beynəlxalq səviyyədə tanıdılması bu siyasətin əsas qayəsidir. Prezidentin 30 dekabr 2025-ci il tarixli Sərəncamı ilə Əcəmi Naxçıvaninin 900 illiyinin dövlət səviyyəsində qeyd olunması, eləcə də abidəsinin ucaldılması həm Naxçıvan memarlıq məktəbinin zəngin mirasının təbliği, həm də gənc nəsildə tarixə və milli kimliyə bağlılığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. UNESCO-nun Baş konfransının 2023-cü il 7-22 noyabr tarixlərində keçirilən 42-ci sessiyasında İstedadlı memarın 900 illiyinin beynəlxalq miqyasda qeyd olunacaq yubileylər siyahısına daxil edilməsi bütövlükdə Azərbaycan xalqının çoxəsrlik mədəniyyətinin daha geniş tanıdılması baxımından mühüm adddımdır.



*Bu qala bizim qala,*
*Həmişə bizim qala,*
*Tikmədim özüm qalam,*
*Tikdim ki, izim qala.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarixi-memarlıq abidəsinin bərpası və konstruksiyası ilə bağlı tədbirlər haqqında" 22 may 2025-ci il tarixli Sərəncamında XII əsr Azərbaycan və Şərq memarlığının nadir nümunəsi olan Möminə xatun türbəsini "islam aləminin şah əsərləri sırasında fəxri yer tutan monumental sənət nümunəsi" və "xalqımızın milli sərvəti" kimi qiymətləndirmesi siyasi-ideoloji baxımdan olduğu kimi, mədəni-tarixi və elmi cəhətdən də böyük əhəmiyyət kəsb edir. Həm siyasi-tarixi əhəmiyyətinə, həm də nadir sənət əsəri kimi dünya memarlığı sahəsindəki xüsusi yerinə və qiymətinə görə özünəməxsus statusa malik olan Möminə xatun memarlıq abidəsinin dövlət səviyyəsində qorunması, bərpa edilməsi, konservasiya olunması haqqındakı mühüm əhəmiyyətə malik olan Sərəncam müstəqil Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqımızın tarixi-mədəni irsinə verdiyi böyük dəyərin və göstərdiyi xüsusi qayğının əməli ifadəsidir.

(Ardı 5-ci səhifədə)

# Bişkekdə 6-cı Dünya Köçəri Oyunlarının açılış mərasimi keçirilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 31-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən 6-cı Dünya Köçəri Oyunlarının açılış mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Dünya Köçəri Oyunlarının əsas məqsədlərindən biri əsrlər boyu müxtəlif xalqları birləşdirən dostluq, birlik və qarşılıqlı hörmət kimi dəyərləri təbliğ etməkdir. Bu tədbir köçəri sivilizasiyasının irsinin, mədəniyyətinin, qədim ənənələrinin və milli dəyərlərinin nümayiş etdirilməsi, qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm beynəlxalq platforma kimi qiymətləndirilir. Dünyanın müxtəlif ölkələrindən nümayəndələri bir araya gətirəcək bu Oyunlar çərçivəsində köçəri xalqların tarixən formalaşdırdıqları ənənəvi qədim idman növləri, o cümlədən atçılıq, güləş, oxatma və digərləri üzrə yarışlar təşkil ediləcək.




Sentyabrın 6-dək davam edəcək tədbir çərçivəsində iştirakçı ölkələrin mədəni irsi və milli adət-ənənələri də təqdim olunacaq.









# Rabitəsiz idarəetmə yoxdur, idarəetməsiz isə qələbə

(Əvvəli 1-ci səhifədə)

O, sürətli qərarvermə və effektiv idarəetmə sisteminin ayrılmaz hissəsinə çevrilib. Məlumatın real vaxtda ötürülməsi, qərarların operativ şəkildə bölmələrə çatdırılması ordunun çevikliyini və idarə olunmasını artırır.

Rabitə Qoşunlarının digər qoşun növləri ilə qarşılıqlı fəaliyyəti də bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Müxtəlif istiqamətlərdə fəaliyyət göstərən bölmələr arasında məlumat mübadiləsinin təşkili, əmrlərin və zəruri məlumatların operativ çatdırılması ümumi idarəetmə mexanizminin effektivliyini təmin edir. Beləliklə, rabitə bütün qoşun növlərini vahid sistem daxilində birləşdirən mühüm vasitəyə çevrilir.

2020-ci ilin Vətən müharibəsi zamanı rabitə sistemlərinin imkanları və onların döyüş əməliyyatlarının idarə edilməsində rolu bir daha özünü göstərdi. Müxtəlif rabitə vasitələrindən istifadə olunması, məlumat mübadiləsinin operativ təşkili və idarəetmənin fasiləsizliyinin təmin edilməsi əməliyyatların uğurla həyata keçirilməsində mühüm amillərdən biri oldu.

Həmin dövrdə rabitə sistemləri çoxsəviyyəli şəkildə fəaliyyət göstərib. Əməliyyatların koordinasiyası, komandirlərin qərarverməsi və məlumatların operativ ötürülməsi rabitə imkanlarının səmərəli tətbiqinə əsaslanıb. Eyni zamanda, müxtəlif müdaxilələrə qarşı dayanıqlığın təmin edilməsi də diqqət mərkəzində olub.



Döyüş şəraitində informasiya təhlükəsizliyinin qorunması rabitəçilərin qarşısında dayanan əsas vəzifələrdən biri idi. Məlumatların qorunması, rabitə kanallarının təhlükəsizliyinin təmin edilməsi və ehtiyat imkanların mövcudluğu əməliyyatların fasiləsiz idarə olunmasına şərait yaradırdı.

Texniki çətinliklər isə döyüş şəraitində qaçılmazdır. Belə məqamlarda rabitəçilərin peşəkarlığı, çevik qərarverməsi və alternativ imkanlardan istifadə bacarığı xüsusi əhəmiyyət qazanır. Əsas əlaqə imkanının sıradan çıxması zamanı ehtiyat rabitə vasitələrinin işə salınması, müxtəlif ssenarilər üzrə əvvəlcədən hazırlıq görülməsi rabitənin dayanıqlığını qorumağa imkan verir.

Vətən müharibəsindən sonra Azərbaycan Ordusunda həyata keçirilən genişmiqyaslı modernləşmə prosesi rabitə sahəsini də əhatə edib. Yeni nəsil rəqəmsal və kriptoqrafik sistemlərin tətbiqi, müxtəlif rabitə imkanlarının inkişaf etdirilməsi məlumat mübadiləsinin təhlükəsizliyinin və operativliyinin artırılmasına xidmət edir.

Müasir texnologiyalar arasında peyk rabitəsi və pilotsuz uçuş aparatlarının imkanları da xüsusi yer tutur. Uzaq məsafələrdə yerləşən bölmələrlə əlaqənin təmin edilməsi, məlumatların operativ ötürülməsi və müxtəlif informasiya mənbələrindən istifadə əməliyyatların daha çevik idarə olunmasına imkan yaradır.

Süni intellekt və avtomatlaşdırma da rabitə sahəsinin inkişaf istiqamətlərindən biridir. Bu texnologiyalar böyük həcmdə məlumatların emalı, informasiya axınının idarə olunması və müəyyən proseslərin avtomatlaşdırılması baxımından yeni imkanlar yaradır. Nəticədə insan faktorunun üzərinə düşən texniki yük azalır, qərarların qəbul edilməsi üçün zəruri məlumatların daha operativ əldə olunması mümkün olur.

Bütün texnoloji yeniliklərin arxasında isə insan amili dayanır. Rabitə zabitinin gündəlik xidməti texniki sistemlərin vəziyyətinin yoxlanılması, avadanlıqların hazırlığının təmin edilməsi, əlaqənin fasiləsizliyinə nəzarət və təlimlər zamanı rabitə proseslərinin sınaqdan keçirilməsi kimi mühüm vəzifələri əhatə edir.

Bu peşədə dəqiqlik, məsuliyyət, texniki bilik və çevik düşüncə xüsusi əhəmiyyət daşıyır. Çünki rabitə zabiti gərgin şəraitdə belə düzgün qərar qəbul etməli, yaranan problemləri operativ qiymətləndirməli və əlaqənin davamlılığını təmin etməlidir.

Rabitə zabitinin məsuliyyəti yalnız texniki məsələlərlə məhdudlaşmır. Onun fəaliyyətinin nəticələri bilavasitə şəxsi heyətin və bölmələrin fəaliyyətinə təsir göstərir. Bu səbəbdən rabitəçi həm peşəkar mütəxəssis, həm də yüksək psixoloji-mənəvi hazırlığa malik hərbi qulluqçu olmalıdır.



Əslində, rabitə zabiti səngərin görünməyən ön xəttində xidmət edir. Onun qurduğu və qoruduğu əlaqə xətti qərargahla bölmələri, komandirlə şəxsi heyəti və müxtəlif qoşun növlərini vahid idarəetmə sistemində birləşdirir. Bu xidmətin səssizliyi onun əhəmiyyətinin azlığından deyil, əksinə, uğurlu fəaliyyətinin təbii nəticəsidir.

Gələcəyin rabitə sistemlərinin isə daha da təkmilləşəcəyi gözlənilir. Süni intellekt, peyk texnologiyaları və digər qabaqcıl texnoloji imkanların tətbiqi rabitənin çevikliyini, dayanıqlığını və təhlükəsizliyini daha da artıracaq.

Ordunun idarə olunmasında əmrdən qərara, qərardan icraya qədər uzanan bütün proseslərin etibarlı rabitəyə ehtiyacı var. Bu baxımdan rabitəçilərin gördüyü iş görünməsə də, onun nəticəsi Azərbaycan Ordusunun hər bir uğurlu fəaliyyətində öz əksini tapır.

**Kapitan**
**Əli ABIYEV**
**“Azərbaycan Ordusu”**

# Müdafiə naziri Türkiyədə hərbi məktəblərin buraxılış mərasimlərində iştirak edib



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasında işgüzar səfərdə olub.

Avqustun 30-da müdafiə naziri Türkiyə Respublikasının Milli Müdafiə Universitetinin Quru Qoşunları, Hərbi Dənizçilik və Hərbi Təyyarəçilik məktəblərinin buraxılış mərasiminə qatılıb.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə iştirak edən Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan mərasimdə çıxış edərək məzunları təbrik edib.

Sonra plana uyğun olaraq məzunlara diplomlar təqdim olunub.

Qeyd edək ki, hərbi məktəbləri müvəffəqiyyətlə bitirən azərbaycanlı məzunlara diplomları general-polkovnik Zakir Həsənov təqdim edib.









# Sülh simvolu necə müharibə xəbərçisinə çevrildi?

*Müharibə tarixində rabitə vasitələri hər zaman döyüşün nəticəsinə təsir edən əsas amillərdən biri olub. Bu gün radio, peyk rabitəsi və rəqəmsal sistemlər hərbi idarəetmənin ayrılmaz hissəsidir. Amma bu texnologiyaların mövcud olmadığı dövrlərdə ordular məlumatı çatdırmaq üçün daha sadə vasitələrdən istifadə edirdilər.*

Onlardan biri də poçt göyərçinləri idi. Göyərçinlərin uzaq məsafələrə istiqamətlərini itirmədən qayıtmaq qabiliyyəti insanlara hələ qədim dövrlərdən məlum idi. Bu xüsusiyyət zaman keçdikcə hərbi məqsədlər üçün də istifadə olunmağa başladı. Xüsusilə teleqraf və radio rabitəsinin geniş yayılmasından əvvəl poçt göyərçinləri döyüş meydanları ilə komanda məntəqələri arasında məlumat ötürməyin mühüm vasitələrindən birinə çevrildi.

Göyərçinlə rabitənin əsas üstünlüyü onun fiziki rabitə xətlərindən asılı olmaması idi. Kabel kəsilə, rabitə xətti sıradan çıxa, xəbərçi isə yolda ələ keçirilə bilərdi. Göyərçin isə kiçik bir məlumatı üzərində daşıyaraq düşmən mövqelərinin üzərindən uça və əvvəlcədən öyrəşdirildiyi yerə qayıda bilirdi. Bunun üçün xüsusi hazırlanmış quşların ayağına və ya bədəninə kiçik kapsullarda yazılı məlumat bağlanırdı.

Birinci Dünya müharibəsi zamanı poçt göyərçinlərinin hərbi əhəmiyyəti daha da artdı. Xəndək müharibəsi şəraitində qoşunların mövqeləri tez-tez dəyişir, telefon və teleqraf xətləri isə artilleriya atəşləri nəticəsində sıradan çıxırdı. Belə vəziyyətdə göyərçinlər alternativ rabitə vasitəsi kimi istifadə edilirdi. Bu dövrdə göyərçinlərdən xüsusilə kəşfiyyat məlumatlarının, bölmələrin vəziyyəti barədə xəbərlərin və təcili yardım çağırışlarının çatdırılmasında istifadə olunurdu. Bəzən bir neçə dəqiqəlik gecikmə belə bölmənin mühasirəyə düşməsi və ya xilas olması arasında fərq yarada bilərdi.

Poçt göyərçinlərinin ən məşhur nümunələrindən biri ABŞ ordusunun "Cher Ami" adlı göyərçinidir. 1918-ci ildə Birinci Dünya müharibəsinin sonlarına yaxın Mezy-Argon döyüşləri zamanı ABŞ əsgərlərindən ibarət 77-ci diviziyanın bir hissəsi düşmən qüvvələri tərəfindən mühasirəyə alınmışdı. Bölmənin mövqeyi barədə göndərilən digər xəbərlər nəticə vermədikdən sonra son ümidlərdən biri Cher Ami oldu. Göyərçin ağır atəş altında buraxıldı. Düşmən onu vurmağa çalışsa da, quş uçuşunu davam etdirdi və məlumatı komanda məntəqəsinə çatdırdı. Nəticədə mühasirədə olan amerikalı hərbçilərin mövqeyi müəyyənləşdirildi və onların üzərinə səhvən artilleriya atəşinin yönəldilməsinin qarşısı alındı. Cher Ami özü isə ağır yaralanmışdı. Göyərçin daha sonra ABŞ-da məşhurlaşdı və göstərdiyi xidmətə görə müharibə qəhrəmanı kimi qəbul edildi. Onun hekayəsi hərbi tarixdə rabitənin nə qədər həyati əhəmiyyət daşıdığını göstərən simvolik nümunələrdən birinə çevrildi.

İkinci Dünya müharibəsi zamanı da poçt göyərçinlərindən istifadə davam etdirilirdi. Artıq radio rabitəsi geniş yayılmışdı, amma radio avadanlığının olmadığı, sıradan çıxdığı və ya istifadəsinin təhlükəli olduğu hallarda göyərçinlər ehtiyat rabitə vasitəsi kimi öz əhəmiyyətini saxlayırdı. Xüsusilə gizli əməliyyatlarda onların istifadəsi diqqət çəkirdi. Britaniyada poçt göyərçinlərindən istifadə edən xüsusi xidmətlər formalaşdırılmışdı. Bəzi quşlar işğal olunan ərazilərə gizli şəkildə göndərilir, yerli müqavimət qüvvələri tərəfindən məlumatlarla təmin edilərək geri qaytarılırdı. Bu məlumatlar düşmən qoşunlarının mövqeləri, hərbi texnikanın hərəkəti və digər kəşfiyyat məlumatlarını əhatə edə bilirdi. Hətta Britaniyada "Dickin Medal" adlı xüsusi mükafat təsis edilmişdi. Bu medal döyüş və xilasetmə əməliyyatlarında göstərdikləri xidmətlərə görə heyvanlara verilirdi. Poçt göyərçinləri də bu mükafata layiq görülən heyvanlar arasında idi. Onların arasında ağır şəraitdə məlumat çatdıraraq insanların həyatını xilas edən quşlar vardı.



Göyərçinlərdən istifadə yalnız Avropa müharibələri ilə məhdudlaşmırdı. Müxtəlif ordular və kəşfiyyat strukturları onların istiqamət hissindən və yüksək sürətlə geri qayıtmaq qabiliyyətindən yararlanırdı. Bu quşların hazırlanması da xüsusi proses idi. Onlar müəyyən marşrutlara uyğunlaşdırılır, müxtəlif məsafələrdən buraxılaraq öz yuvalarına qayıtmağa öyrədilirdi. Lakin poçt göyərçinlərinin də ciddi məhdudiyyətləri vardı. Onlar yalnız öyrəşdirildikləri istiqamətə qayıda bilirdilər. Buna görə də bir quşun istənilən iki məntəqə arasında sərbəst şəkildə məlumat aparması mümkün deyildi. Bundan başqa, hava şəraiti, yırtıcı quşlar, düşmən atəşi və digər təhlükələr onların missiyasını çətinləşdirirdi.

Bütün bu çətinliklərə baxmayaraq, poçt göyərçinlərinin hərbi tarixdə xüsusi yeri formalaşdı. Onlar tank və təyyarələr kimi müharibənin əsas silahı olmadı. Lakin bəzən bir neçə qramlıq kağız parçasının çatdırılması yüzlərlə insanın taleyini dəyişə bilirdi. Bu gün hərbi rabitə saniyələr ərzində dünyanın digər tərəfindəki komanda məntəqəsinə məlumat ötürə bilir. Peyklər, radioelektron sistemlər və rəqəmsal şəbəkələr müasir ordunun idarə edilməsində mühüm rol oynayır. Ancaq hərbi rabitənin tarixində qanadlı "rabitəçilərin" də öz səhifəsi var.

Poçt göyərçinlərinin hekayəsi texnologiyanın inkişafından daha böyük bir həqiqəti xatırladır: müharibədə məlumatın vaxtında çatdırılması bəzən silahın özündən də vacib olur. Bir əsr əvvəl bu missiyanı kilometrlərlə məsafəni uçaraq yerinə yetirən kiçik quşlar daşıyırdı. İnsan isə bütün texnoloji inkişafına baxmayaraq, həmin sadə prinsipdən hələ də imtina etməyib: doğru məlumat doğru zamanda doğru yerə çatmalıdır.

**Leytenant**
**Tamilla HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Əsrlərdən boylanan yaddaşımız

**(Əvvəli 3-cü səhifədə)**

Avqust ayında ölkəmizin başçısı və birinci xanım Mehriban Əliyeva Naxçıvana səfəri zamanı Möminə xatun türbəsində aparılan bərpa və konservasiya işləri ilə tanış olub, səfər çərçivəsində Naxçıvan şəhərindəki "Əcəmi seyrangahı" istirahət kompleksində memar Əcəmi Naxçıvaninin abidəsinin açılışında iştirak ediblər. Abidənin müəllifləri Xalq rəssamı Salxab Məmmədov, Əli İbadullayev və NMR-in Memarlar Birliyinin sədri Heydər Əhmədovdur. Heykəlin hündürlüyü 270, postamentin hündürlüyü 90 m, ümumilikdə isə abidənin hündürlüyü 385 metrdir. Abidə bürüncdən, postament qranitdən hazırlanıb.

Əcəmi Naxçıvaninin xatirəsinin əbədiləşdirilməsi Azərbaycan dövlətinin mədəniyyətimizə göstərdiyi diqqətin parlaq təzahürüdür.

Nəticə etibarilə əsrlərin sınağından keçərək günümüzə qədər ucalan bu abidələr Əcəmi Naxçıvanini ölümsüzləşdirir, onun adını təkcə Azərbaycanın deyil, bütün Şərq memarlığının zirvəsinə yazır. Onun abidələri Əcəmi dühasının zamana meydan oxuyan vizual bəyanatıdır. İnsan ömrü fani olsa da, onun daşlara qazıdığı milli kimliyimiz və mədəniyyətimiz əbədi yaşayacaqdır.

**Sevinc QULİYEVA**
**"Azərbaycan Ordusu"**

# Təkərin ixtirasından zirehli gücə - avtomobilin tarixi və hərbi sahədəki böyük rolu




Tarix boyu böyük ixtiralar çox olub, amma onlardan heç biri həyatımızı avtomobil qədər kökündən dəyişməyib. Bir zamanlar uzaq məsafələri qət etmək üçün günlərlə, hətta həftələrlə yol gedən insanlar bu gün saatlar içində dünyanın müxtəlif nöqtələrinə çata bilirlər. Avtomobil təkcə nəqliyyat vasitəsi deyil, o, inkişafın, sürətin, texnologiyanın və insan zəkasının ən böyük göstəricisidir. Bu gün dünyanın iqtisadi həyatını, insanların gündəlik fəaliyyətini, səhiyyəni, kənd təsərrüfatını və hətta dövlətlərin müdafiə sistemini avtomobilsiz təsəvvür etmək mümkün deyil.

Avtomobilin yaranmasının əsasında insanın daim irəli getmək, daha sürətli hərəkət etmək və çətinlikləri aradan qaldırmaq arzusu dayanır. Əsrlər boyu insanlar at arabaları, faytonlar və digər sadə nəqliyyat vasitələrindən istifadə edirdilər. Lakin XVIII əsrdə başlayan sənaye inqilabı texnologiyanın inkişafına güclü təkan verdi. Buxarla işləyən ilk nəqliyyat vasitələri meydana çıxdı. Bunun ardınca XIX əsrin sonlarında alman mühəndisi Karl Benz daxiliyanma mühərriki ilə işləyən ilk müasir avtomobili hazırladı.

Məhz bu ixtira avtomobil sənayesinin təməlini qoydu. O zamanlar küçələrdə gurultu ilə hərəkət edən bu "at köməyi olmadan gedən arabaları" görənlər sadəcə gülümsəyir və bunu zənginlərin ötəri bir əyləncəsi hesab edirdilər. Bir neçə il sonra amerikalı sənayeçi Henri Ford transporter üsulu ilə kütləvi istehsala başlayaraq avtomobili milyonlarla insan üçün əlçatan etdi. Bununla da avtomobil artıq yalnız zənginlərin deyil, cəmiyyətin hər bir təbəqəsinin istifadə edə bildiyi nəqliyyat vasitəsi oldu.

Heç kimin ağlına gəlməzdi ki, bu qəribə ixtira gələcəkdə bəşəriyyətin taleyini həll edəcək, şəhərləri yenidən quracaq və ən əsası, müharibələrin strategiyasını kökündən dəyişəcək.

Avtomobilin inkişafı təkcə mülki həyatla məhdudlaşmadı. O, hərbi sahədə də əsl inqilab yaratdı. Keçmiş dövrlərdə orduların hərəkəti atlı qoşunlardan və yük arabalarından asılı idi. Bu isə həm vaxt itkisinə, həm də döyüş imkanlarının məhdudlaşmasına səbəb olurdu. Mühərrikli nəqliyyat vasitələrinin yaranması ilə hərbi strategiya tamamilə dəyişdi. Ordular daha sürətli hərəkət etməyə, daha qısa müddətdə uzun məsafələr qət etməyə və döyüş bölgələrinə operativ şəkildə çatmağa başladılar. 1914-cü ildə tarixə "Marn taksiləri" kimi düşən məşhur bir hadisə baş verdi. Alman ordusu Parisə doğru irəliləyərkən, Fransa ordusu cəbhə xəttinə təcili olaraq əsgər çatdırmalı idi, lakin qatarlar və qatar xətləri yetərsiz qalırdı. General Qalyeninin əmri ilə Parisin bütün dördtəkərli taksiləri səfərbər edildi. Gecə boyunca minlərlə əsgər bu yüngül minik maşınları ilə birbaşa döyüş meydanına daşındı. Bu addım müharibənin taleyini dəyişdi və avtomobilin hərbi sahədəki əvəzsiz rolunu tarixə qızıl hərflərlə yazdı.

Bu gün biz hərbi avtomobillərin növbəti böyük təkamül mərhələsinə şahidlik edirik. Döyüş meydanlarında gurultulu daxiliyanma mühərrikli avtomobilləri, kəşfiyyat zamanı düşmənə görünməyən səssiz elektrik motorları əvəzləməyə başlayır. Bundan əlavə, süni intellektlə idarə olunan, sürücüsüz hərbi robotmaşınlar təhlükəli zonalarda insan itkisinin qarşısını almaq üçün sınaqdan keçirilir. 140 il əvvəl kiçik bir emalatxanada, taxta təkərlər üzərində başlayan bu dördtəkərli səyahət, bu gün qlobal təhlükəsizliyin və hərbi gücün ən böyük dayaqlarından biridir.

1990-cı illərin əvvəllərində müstəqilliyini yenicə bərpa edən Azərbaycanın hərbi imkanları məhdud olsa da, aparılan genişmiqyaslı islahatlar, hərbi texnikanın yenilənməsi və müasir texnologiyaların tətbiqi nəticəsində ordu tamamilə yeni səviyyəyə yüksəlib. Bu gün hərbi avtomobillər sadəcə əsgərləri bir nöqtədən digərinə daşıyan vasitələr deyil. Onlar birbaşa atəş xəttində döyüşən, kəşfiyyat aparan və ordunu qoruyan mexaniki canavarlardır. Müasir dövrdə avtomobil hərbi sahədə üstünlüyün və qələbənin əsas rəmzidir. Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində nümayiş etdirdiyi ildırım sürəti və mobil taktikalar da məhz müasir, yüksək keçid qabiliyyətinə malik çevik hərbi avtomobillərin səmərəli istifadəsi sayəsində uğurla icra olundu.

Günümüzdə müasir ordunu hərbi avtomobillərsiz təsəvvür etmək mümkün deyil. Döyüş meydanlarında tanklar düşmənin müdafiə xəttini yarmaq üçün istifadə olunur. Zirehli nəqliyyatlar əsgərləri təhlükəsiz şəkildə döyüş zonasına çatdırır və onları güllə, mərmi qəlpələri və mina təhlükəsindən qoruyur. Hərbi yük avtomobilləri ərzaq, yanacaq, silah-sursat və digər vacib təchizat vasitələrini ən çətin relyeflərdə belə ön cəbhəyə daşıyır. Təcili tibbi yardım maşınları yaralı hərbçilərin həyatını xilas etmək üçün saniyələrin belə böyük əhəmiyyət daşıdığı məqamlarda mühüm rol oynayır. Bundan başqa, mühəndis texnikaları yolların açılması, körpülərin qurulması və maneələrin aradan qaldırılması kimi mühüm vəzifələri yerinə yetirir.

Müasir hərbi avtomobillər artıq sadəcə mühərrik və təkərlərdən ibarət deyil. Onlar güclü zirehlə, yüksək keçid qabiliyyətinə malik mühərriklərlə, peyk rabitəsi, gecəgörmə cihazları, rəqəmsal idarəetmə sistemləri və pilotsuz texnologiyalarla təchiz edilir. Bəzi nəqliyyat vasitələri uzaqdan idarə olunur, bəziləri isə süni intellekt elementləri vasitəsilə təhlükəli ərazilərdə insan həyatı riskə atılmadan tapşırıqları yerinə yetirə bilir. Bu yeniliklər müasir müharibələrin xarakterini dəyişdirən əsas amillərdən biridir.

Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü və texnoloji cəhətdən ən çox inkişaf edən qüvvəsidir. Ordumuzun texnikası bu gün həm say, həm keyfiyyət, həm də müasir döyüş konsepsiyalarına uyğunluğu baxımından ön sıradadır. Bu sahədə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi ardıcıl siyasətin böyük rolu var. Bu siyasətin əsas məqsədi Azərbaycanın müdafiə qabiliyyətini daha da gücləndirmək, ölkənin təhlükəsizliyini təmin etməkdir. Müasir texnologiyalar, peşəkar kadrlar, milli istehsal potensialı və strateji tərəfdaşlıqlar sayəsində Azərbaycan Ordusu yüksək döyüş hazırlığı səviyyəsindədir. Bu güc təkcə müdafiə qabiliyyətini deyil, həm də sülhün və sabitliyin qorunmasında Azərbaycanın rolunu daha da möhkəmləndirir.



Müasir müharibələrdə qələbə əsgərlərin şücaəti ilə bərabər, həm də güclü hərbi texnika və etibarlı nəqliyyat sistemi ilə qazanılır. Bu səbəbdən hərbi avtomobillər ordunun hərəkətverici qüvvəsi hesab olunur. Onlar şəxsi heyətin, silah-sursatın, yanacağın və digər təchizat vasitələrinin vaxtında döyüş bölgəsinə çatdırılmasını təmin edir.

Dünyanın müxtəlif ordularında istifadə olunan tanklar (məsələn, M1 Abrams, Leopard 2, T-90, T-72) güclü zirehi və ağır silahlanması ilə düşmənin müdafiə xəttini yarmaq üçün nəzərdə tutulub. Zirehli transportyorlar və piyada döyüş maşınları (BTR-82A, BTR-70, BMP-2, BMP-3) əsgərləri təhlükəsiz şəkildə döyüş zonasına çatdırır və onları atəş altında qoruyur.

Orduların təminatında KamAZ, Ural-4320, KrAZ, MAN HX, Oshkosh HEMTT kimi hərbi yük av-



tomobilləri mühüm rol oynayır. Bu nəqliyyat vasitələri tonlarla sursatı, yanacağı, ərzağı və hərbi texnikanı ən çətin dağlıq və palçıqlı ərazilərdən belə daşımaq gücünə malikdir.

Azərbaycan Ordusunun silahlanmasında da müasir hərbi nəqliyyat vasitələri geniş yer tutur. Ordumuz Otokar Cobra, Kirpi mina mühafizəli zirehli maşınları, BTR-82A, BMP-2, müxtəlif təyinatlı KamAZ və Ural yük avtomobilləri, həmçinin mühəndis və təminat texnikaları ilə təchiz olunub. Bu texnikalar istər dağlıq ərazilərdə, istərsə də mürəkkəb döyüş şəraitində yüksək etibarlılıq nümayiş etdirərək ordumuzun çevikliyini və döyüş qabiliyyətini artırır. 44 günlük Vətən müharibəsində də müasir hərbi nəqliyyat vasitələrinin operativliyi, təminatın vaxtında çatdırılması və qoşunların koordinasiyalı hərəkəti qazanılan Zəfərdə mühüm rol oynadı.

Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad zamanı nümayiş etdirilən texnikalar isə Azərbaycan Ordusunun çoxşaxəli, müasir və inteqrasiya olunmuş döyüş potensialını aydın şəkildə əks etdirirdi. Paradda zirehli avtomobillərdən tutmuş uzaqmənzilli raket komplekslərinə, hava hücumundan müdafiə sistemlərindən tutmuş yüksəkdəqiqlikli pilotsuz uçuş aparatlarına, artilleriya sistemlərinə qədər müşahidə olunub. Bu müxtəliflik ordunun, eyni zamanda, həm müdafiə, həm də əməliyyat-taktiki hücum funksiyalarını effektiv həyata keçirməsinə imkan verir. Hərbi parad zamanı nümayiş etdirilən hərbi texnikalar, silah sistemləri və aviasiya vasitələri ilə bağlı məlumatları təqdim edirik: Azadlıq meydanındakı hərbi paradda İnsansız Sistem Qoşunları tərəfindən ordumuzun pilotsuz uçuş aparatları (PUA) və digər insansız vasitələri də təqdim edilib. Paradda nümayiş etdirilən "Orbiter-1KM" zərbə PUA-sı, "Orbiter-2", "Orbiter-3" və "Orbiter-4" kəşfiyyat PUA-ları, "Aerostar" taktiki-kəşfiyyat PUA-sı, "Bayraktar-TB2" silahlı kəşfiyyat PUA-sı, silahlanmaya yeni qəbul edilmiş "Hero-120" (HİRO) sərbəst uçan döyüş sursatları, "Sky Striker" (Strayker) sərbəst uçan döyüş sursatları, "Orbiter-5" taktiki-kəşfiyyat PUA-sı, "Harop" zərbə tipli PUA-sı, "Hermes-450" taktiki-kəşfiyyat PUA-sı, silahlanmaya yeni qəbul edilmiş KAYRA - kamikadze tipli suüstü dəniz vasitəsi ordumuzun həm kəşfiyyat-zərbə, həm də dəniz və sahə əməliyyatlarında yeni taktiki imkanlar qazandığını göstərir. Marauder və Matador tipli mina əleyhinə zirehli nəqliyyat vasitələri də ordumuzun texnoloji üstünlüyünün parlaq simvoludur. Azərbaycan və Türkiyə pilotlarının iştirakı ilə aviasiya nümayiş uçuşları isə izləyicilər üçün unudulmaz olub. Parad çərçivəsində uçan Mİ-17 döyüş-nəqliyyat helikopterləri Azərbaycan, Türkiyə və Pakistan respublikalarının Dövlət bayraqlarını daşıyıb, Mİ-17 helikopteri Ümummilli Lider Heydər Əliyevin portretini nümayiş etdirib. Həmçinin uzaqmənzilli hava-yer tipli raketlərlə təchiz olunmuş Mİ-17 döyüş-nəqliyyat helikopterləri, MFİ-17 təlim təyyarələri, L-39 təlim təyyarələri, İL-76 hərbi-nəqliyyat və silahlanmaya yeni qəbul edilmiş C-27J yük təyyarələri, silahlanmaya yeni qəbul edilmiş JF-17 (Cİ EF) çoxməqsədli qırıcı təyyarələr, Türkiyə Hərbi Hava Qüvvələrini təmsil edən F-16 çoxməqsədli qırıcı təyyarələr, modernizasiya olunmuş SU-25-Laçın hücum təyyarələri iftixar dolu hisslər yaşadıb. SU-25 hücum təyyarələri isə Azərbaycan Bayrağının rənglərini paytaxt səmasında canlandırıb.

Təkərin ilk dəfə fırlanmasından bu günün müasir zirehli texnikalarınadək uzanan bu inkişaf yolu insan zəkasının, əzmkarlığının və daim yeniliyə can atmasının parlaq nümunəsidir. Avtomobil yalnız yolları deyil, həm də tariximizi, həyat tərzimizi və gələcəyimizi dəyişdirən ən möhtəşəm ixtiralardan biri kimi öz dəyərini hər zaman qoruyacaq.

**Pərvanə İMAMƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

Ordu-cəmiyyət

# “Bir vətəndaş olaraq ordumuza göstərilən dövlət qayğısından razıyam”

*Ordu cəmiyyətin bir hissəsidir. Orduda demək olar ki, milyonlarla ailənin övladı xidmət edir. Ona görə də cəmiyyət ilə ordu arasında təmas tez-tez olur. Valideynlərin hərbi xidmətdə olan övladları ilə görüşlərin keçirilməsi bunun əyani göstəricisidir. Xalq-ordu birliyi ordunun güclü olmasından xəbər verir. Xalqımız hər zaman öz ordusuna diqqət, qayğı göstərir. Ordu yeni yarananda dövlətin büdcəsi formalaşmamışdı, xalq öz yardımını ordudan əsirgəmədi. Dövlətin büdcəsi artdıqca ordunun da gücü artdı. Güclü ordu xalqın və dövlətin təhlükəsizliyi və müdafiəsinin silahlı təminatçısıdır.*

Bu günlərdə Azərbaycan Ordusunun bölmələrində Hərbi andiçmə mərasimləri keçirildi. Övladlarının andiçmə mərasiminə gələn valideynlərin sayı-hesabı yox idi. Həmin gün andiçmə mərasimləri keçirilən hərbi hissələrin qarşısında hələ gecəynən gə-



lənlər də vardı. Ordumuzda andiçmə mərasimləri valideynlərsiz keçirilmir. Artıq bu adət halını alıb. Gənc əsgərlərin həyatında baş verən bu əlamətdar gün valideynlər üçün də unudulmaz, yaddaqalan xoş bir günə çevrilib. Həm də valideynlər övladlarının necə və hansı şəraitdə xidmət etdiklərini görürlər. Bu arada cəmiyyətin orduya olan münasibətini öyrənmək üçün bir neçə valideynin fikrini öyrənmək istədik.

**Əsgər atası Telman Əliyev:**
- Görünən dağa nə bələdçi, - deyiblər. Hər şey göz qabağındadır. Yaxşı yadımdadır, burada əvvəllər hərbi hissə yerləşirdi. Əsgər yataqxanaları, yeməkxana və başqa binalar köhnə idi. Bu gün isə bu ərazidə o dövrdən heç nə qalmayıb. Ən yeni, müasir tipli yataqxanalar, qərargah və başqa tikililər əsgərlərin xidməti istifadəsinə verilib. Buradakı şəraiti görəndə ürəyim açılır. Oğlum da deyir ki, daxildə də şərait çox yaxşıdır. Xidmətə gəldiyi gündən hər bir əsgər təzə geyim, yataq dəsti və digər təminatlarla tam təmin edilib. Əsgər yeməkxanasında aşpazlar və digər işçilər mülki qadınlardır. Onların bişirdikləri müxtəlif çeşiddə milli xörəklər heç də evdə ananın hazırladığı yeməklərdən geri qalmır. Valideyn kimi oğlumun xidmət yerindən çox razıyam. İllər keçdikcə ordumuzda əsgərlərin təminatı da yüksəlir. Biz buna əvvəlki illərlə müqayisədən belə qənaətə gəlirik.

Oğlumdan başqa burada xidmət edən əsgərlərə də fikir verirəm. Onlar da olduqca şən görünürlər. Bu, əsgərlərə olan diqqət və qayğıdan irəli gəlir. Onlar da öz növbəsində Vətən qarşısında övladlıq borcunu şərəflə, ləyaqətlə yerinə yetirməlidirlər. Bunu oğluma da demişəm. Bütün əsgərlər Vətənə hərbi xidmət borcunu vicdanla yerinə yetirib doğmalarının yanına qayıtsınlar.

**Əsgər atası Rafiq Canlatov:**
- Ordumuzda Hərbi andiçmə mərasimi valideynlərlə, qonaqqaralı keçirilir. Valideynlərin və yaxınların gənc əsgərlərin andiçmə mərasimində iştirak etməklərini alqışlayıram. Hər bir əsgərin həyatında ən yaddaqalan gün elə Hərbi Andı qəbul etdiyi gündür. Əsgərlər bu günü bayram kimi qəbul edirlər. Axı biz valideynlər və başqa yaxın qohumlar övladımızın bu bayramında niyə iştirak etməyək? Niyə onların bu sevincinə şərik olmayaq? Əsgərlər hərbi xidmətə gələndən bu günü səbirsizliklə gözləyirlər. Andiçmə mərasimində ciddi hazırlaşırlar. Onlar da istəyirlər ki, belə bir gündə doğmaları, yaxınları və arzuladıqları insanlar yanlarında olsunlar. Bu, həm də ona görə yaxşıdır ki, cəmiyyət ordudakı şəraiti görür və qiymət verir.

Açığını deyim, İkinci Qarabağ müharibəsindən əvvəl də andiçmə mərasimləri keçirilirdi. Qohum uşaqların andiçməsinə getmişdim. O vaxt indiki kimi əsgərlər üçün şərait yox idi. Bu gün dövlətimizin orduya olan diqqətini və qayğısını yüksək görürük.



Bu, bizi çox sevindirir.

Hərbi Andı qəbul edən əsgərlərin sıralarını gördüm. Onların sıradakı duruşu, sıra addımları, Hərbi Andın sözlərini xorla təkrar etməsi bir ayın işi deyil, bu bir ilin əsgərləri olduğunu xatırladır. Qısa müddətdə onların bu cür hazırlaşmaları kənardan müşayiət edənlərə xoş ovqat bağışlayır.

**Əsgər atası Bəxtiyar İbrahimov:**
- Andiçmə mərasiminə gələn



izdihamı görürəm. Ordu ilə xalq arasında olan bağlılıqdı bu. Cəmiyyət hər zaman öz ordusu ilə birlikdə olduğunu, birgə nəfəs aldığını bildirir. Ordumuz bu inkişaf mərhələsinə bir ildə nail olmayıb. Bu, on illərin, xalqın və dövlətin diqqət və qayğısının nəticəsidir. Yaxşı yadımdadır. Ordumuz təzə yarananda Qarabağ müharibəsi yenicə alovlanırdı. Müharibə gedə-gedə biz ordumuzu yaratdıq. Döyüşlərdə uğurlarımız da oldu, məğlubiyyətimiz də. Amma buna baxmayaraq xalq cəmiyyət olaraq ruhdan düşmədik. Dövlət qurduq, dövlətçiliyi möhkəmlədirdik. Dövləti qorumaq üçün dövlətçiliyə qarşı yönəlmiş xarici təcavüzün qarşısını ala bilən ordu sistemini yaratdıq. Xalqın içindən Ulu Öndər Heydər Əliyev kimi dahi siyasi xadim çıxdı. Onun uzaqgörən siyasəti nəticəsində Azərbaycan regionun ən güclü dövlətinə çevrildi. 30 ilə yaxın ermənilərin işğal etdikləri qədim Azərbaycan torpaqlarını, Qarabağı və ətraf rayonlarını işğaldan azad etdik. 6 il bundan əvvəl baş verən döyüşləri də yaxşı xatırlayıram. Xalq-dövlət-ordu birliyi qısa müddətdə cəmi 44 günə Ermənistan ordusunu məğlub edərək Zəfər qazandı. Bununla da Azərbaycanın suverenliyi bərpa edildi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuz daha da güclənir. Azərbaycan Ordusunun döyüş və mənəvi hazırlığı daim artır. Hərbi Andı qəbul edən əsgərlərin də başlıca məqsədi Vətənə sədaqətlə xidmət etmək, qarşıda duran bütün tapşırıqları şərəflə, ləyaqətlə yerinə yetirməkdən ibarətdir. Biz də cəmiyyət olaraq hər an ordumuzun yanındayıq.

**Əsgər atası Qafar Həmzəzadə:**
- Ordumuzun bu gününü gör-



mək mənə olduqca xoş təsir bağışlayır. Qalib ordu, qalib əsgər. Bu kəlmələri eşidəndə ürəyim dağa dönür. Görmək istədiyim ordu məhz bu idi. Əvvəllər ordumuz müharibə şəraitində səngərlərdə düşmənlə təmas xəttində xidmət aparırdı. Həm müdafiə olunurdu, həm də döyüş vərdişlərini artırırdı. Özüm də əsgər olmuşam. Hərbi xidmət illərimi indiki dövrlə müqayisə etsəm, arada çox fərq yaranıb. Çöl təlimlərimiz olurdu. Günlərlə poliqonlarda qalırdıq. Döyüş hazırlığımızı artırırdıq. Bu cür hazırlıqlar torpaqlarımızın azad edilməsinə, Vətənimizi xarici qüvvələrin təsirindən qorunmağa gətirib çıxartdı.

Oğlum Yusifi bir ay bundan əvvəl hərbi xidmətə yola salmışam. Ona əsgərliyin nə olduğunu hərbi xidmətə getməmişdən əvvəl izah etmişəm. Təlimlərdə, dərslərdə komandirlərin öyrətdiklərini dərindən mənimsəməsi, verilən tapşırıqlarla sözsüz əməl etməyin vacibliyi barədə məlumat vermişəm.

Yusif bu gün əsgərdir. Onun necə intizamlı, komandirlərin əmr və göstərişlərinə sadiq qaldığını görürəm. Bu, mənə ruh verir. Həmçinin burada oğlumun əsgər yoldaşlarını da görürəm. Onların bir-birilər ilə davranışları, səmimi qarşılıqlı münasibətləri gələcəyin dostluğundan xəbər verir. Bu günün əsgərləri gələcək cəmiyyətin fəal üzvləridir. Bir vətəndaş olaraq bugünkü ordumuza göstərilən dövlət qayğısından razıyam. Övladlarımızın nümunəvi xidmət etməsinə və sağ-salamat evlərinə qayıtmaları üçün göstərilən qayğıya görə dövlətimizin başçısına və ordu rəhbərliyinə minnətdarıq.

**Bəxtiyar ƏLİYEV**
**“Azərbaycan Ordusu”**

# Azad olunmuş ərazilərdə təhlükəsizliyi artırmaq üçün minaaxtaran itlər cəlb olunacaq

“Minalar Əleyhinə Azərbaycan Kampaniyası” İctimai Birliyi sentyabrın 1-dən “Minaaxtaran itlər vasitəsilə minaların təmizlənməsinin sürətləndirilməsi” adlı yeni layihənin icrasına başlayır.

AZƏRTAC xəbər verir ki, layihə Kanadanın Türkiyə, Azərbaycan və Gürcüstandakı səfirliyinin maliyyə dəstəyi ilə həyata keçiriləcək. Layihənin əsas məqsədi işğaldan azad olunmuş ərazilərdə yeni mina qurbanlarının qarşısını almaqdır. Həmçinin kənd təsərrüfatı və infrastruktur layihələrinin həyata keçirilməsi üçün minaların təmizlənməsinin sürətləndirilməsidir. Xüsusi hazırlıq keçmiş minaaxtaran itlər minalarla çirklənmiş ərazinin yoxlanılmasına və minaların aşkarlanmasına çox böyük töhfə verə bilir. Bu baxımdan layihənin digər əsas məqsədi minatəmizləmə potensialının gücləndirilməsi, təhlükəli ərazilərin daha qısa müddətdə təhlükəsiz vəziyyətə gətirilməsinə dəstək göstərilməsi və nəticə etibarilə mülki əhalinin təhlükəsizliyinin artırılmasıdır.

Məlumdur ki, minaaxtaran itlər məsafədən idarə olunan texnikanın və ya minaları müəyyən edən detektorların hərəkətinin məhdud olduğu çətin relyefli ərazilərdə, meşəliklərdə və sıx bitki örtüyü olan sahələrdə səmərəli şəkildə fəaliyyət göstərə bilirlər. Detektorlar ərazidəki istənilən metal parçasına (məsələn məftil qırıqlarına) reaksiya verdiyi üçün belə sahələrdə işləmək çətindir və çox vaxt aparır. Minaaxtaran itlər isə metala deyil, bilavasitə partlayıcı maddənin qoxusuna reaksiya verdikləri üçün belə çirklənmiş ərazilərdə daha sürətli və dəqiq nəticə göstərirlər.

Bu layihə çərçivəsində iki minaaxtaran itin alınması, beynəlxalq standartlara uyğun müvafiq prosedurlardan keçirildikdən sonra Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANA




MA) həyata keçdiyi minatəmizləmə əməliyyatlarına cəlb olunması nəzərdə tutulur.

*Hərbi terminlər*

# Mazğal - atəş açmaq üçün nəzərdə tutulan açılış



Atəş mövqeyinin quruluşunda əsas məsələlərdən biri silahın tətbiqi üçün əlverişli şərait yaratmaqla yanaşı, şəxsi heyətin təhlükəsizliyini təmin etməkdir. İstehkamçılıqda bu məqsədlə müxtəlif konstruktiv həllərdən istifadə olunur. Mazğal da həmin həllər sırasında xüsusi yer tutur. Mazğal müdafiə qurğusunun divarında və ya digər möhkəmləndirilmiş hissələrində atəş açmaq üçün nəzərdə tutulan açılışdır. Silah bu açılışdan istifadə etməklə qurğunun daxilindən xaricə doğru yönəldilir. Beləliklə, atəş mövqeyi qoruyucu səddin imkanları ilə birləşir. Mazğalın əsas xüsusiyyəti onun sadəcə açılışdan ibarət olmamasıdır. Açılışın ölçüsü, forması və istiqaməti silahın xüsusiyyətlərinə və nəzərdə tutulan atəş xəttinə uyğunlaşdırılır. Bu zaman silahın yerləşdirilməsi, tuşlanması və atəş zamanı tələb olunan hərəkət sahəsi nəzərə alınır. Buna görə mazğalın konstruksiyası onun hansı silah üçün və hansı mövqedə nəzərdə tutulmasından asılı olaraq dəyişə bilər. Atəş xəttinin düzgün qurulması mazğalın layihələndirilməsində əsas məsələlərdən biridir. Açılışın yan səthləri və daxili quruluşu silahın müəyyən istiqamətdə yönəldilməsinə imkan verir. Bəzi konstruksiyalarda mazğalın daxili hissəsi xarici hissəyə nisbətən daha geniş olur. Bu quruluş silahın daha geniş bucaq altında istiqamətləndirilməsinə şərait yaradır. Eyni zamanda, xarici tərəfdə açılışın məhdud saxlanılması müdafiə qurğusunun qoruyucu xüsusiyyətlərinin saxlanmasına xidmət edir.

Mazğalın yerləşdirilməsi də ümumi müdafiə planının bir hissəsidir. Onun istiqaməti atəş xəttinə uyğun seçilir. Bir neçə mazğalın müxtəlif istiqamətlərdə yerləşdirilməsi müdafiə mövqeyinin qarşısında müəyyən atəş sahələrinin yaradılmasına imkan verir. Bu baxımdan mazğalın yeri onun ölçüsü və formasından az əhəmiyyət daşımır. İstifadə olunan silahın növü mazğalın quruluşuna birbaşa təsir göstərir. Kiçik atıcı silahlar üçün nəzərdə tutulan açılışlarla artilleriya vasitələri üçün yaradılan mazğalların ölçüləri və konstruktiv xüsusiyyətləri fərqlənir.

Artilleriya üçün mazğalın quruluşunda silahın yerləşdirilməsi və atəş istiqamətinin təmin edilməsi ilə yanaşı, hesablamanın və heyətin fəaliyyət təhlükəsizliyi də nəzərə alınır. Fortifikasiya terminologiyasında belə açılışlar xüsusilə artilleriya atəşinin aparılması ilə əlaqələndirilir.

Mazğalın düzgün qurulması ilə müdafiə qurğusunun iki mühüm tələbi uzlaşdırılır: silahın effektiv tətbiqi və atəş mövqeyinin qorunması. Açılış həddindən artıq geniş olduqda müdafiə qurğusunun qoruyucu imkanları zəifləyə bilər. Əksinə, ölçülər silahın normal tətbiqinə imkan vermədikdə atəş mövqeyinin funksional imkanları məhdudlaşır. Buna görə mazğalın parametrləri konkret mühəndis və döyüş tələblərinə uyğun müəyyən edilir.



İstehkamçılığın inkişafı mazğalın quruluşunda da öz əksini tapır. Silahların texniki xüsusiyyətləri dəyişdikcə onların yerləşdirilməsi və tətbiqi üçün tələb olunan şərait də yenilənir. Bu isə atəş açılışlarının forma və ölçülərinə təsir göstərir. Beləliklə, mazğal yalnız müəyyən bir dövrün istehkam elementini deyil, silah və müdafiə qurğularının qarşılıqlı inkişafını göstərən hərbi-mühəndislik anlayışını ifadə edir. Müasir fortifikasiya sistemləri əvvəlki dövrlərin müdafiə qurğularından texniki imkanlarına görə ciddi şəkildə fərqlənir. Buna baxmayaraq, atəş mövqeyinin qorunması və silahın həmin mövqedən səmərəli tətbiqi prinsipi hərbi mühəndislikdə öz əhəmiyyətini saxlayır. Mazğal termini də bu prinsipin istehkam quruluşunda konkret ifadələrindən biridir. Mazğalın əhəmiyyəti onun ölçüsündə deyil, yerinə yetirdiyi funksiyada üzə çıxır. O, müdafiə qurğusunun müəyyən hissəsində atəş üçün məqsədyönlü şəkildə formalaşdırılan açılışdır. Onun forması, ölçüsü və istiqaməti silahın imkanlarına və atəş xəttinə uyğunlaşdırılır. Nəticədə mazğal müdafiə qurğusunun qoruyucu xüsusiyyətləri ilə atəş imkanlarını bir konstruktiv həll daxilində əlaqələndirir.

**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Nyu-Yorkda insident: 2 ölü, 1 yaralı




Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərinin mərkəzindəki Times meydanında qadının bıçaqla hücum etməsi nəticəsində 1 nəfər ölüb, digəri yaralanıb.

Hücumdan sonra qadın polislərin təslim olmaq barədə əmrinə məhəl qoymayıb və onlara tərəf qaçıb. Bundan sonra polislər ona atəş açıblar və nəticədə qadın ölüb.

Zərərçəkənin sağlamlıq vəziyyəti, eləcə də hadisənin səbəbləri barədə hələlik məlumat verilməyib.

### İran ABŞ-yə məxsus daha bir PUA-nın vurulduğunu açıqlayıb



İran hərbçilərinin Hörmüz boğazının şərqində Amerika Birləşmiş Ştatlarına (ABŞ) məxsus daha bir MQ-9 Reaper tipli pilotsuz uçuş aparatını (PUA) vurduqları bildirilib.

Bu barədə İran mediası məlumat yayıb.

Bildirilib ki, avqustun 30-da da ABŞ-yə məxsus PUA vurulub.

"The Washington Post" qəzetinin məlumatına görə, bu vaxtadək ABŞ Hörmüz boğazı ətrafında azı 45 MQ-9 Reaper tipli PUA-nı itirib. Bu isə həmin tipdə olan PUA-ların təxminən 25 faizini təşkil edir.

### Nepalda daşqın nəticəsində ölənlərin sayı 939-a çatıb



Nepalda daşqın nəticəsində ölənlər 939, itkin düşənlər isə 592 xarici vətəndaş da daxil olmaqla, 3925 nəfərdir.

Bu barədə Nepalın Fəlakət Risklərinin Azaldılması və Nəticələrinin Aradan Qaldırılması üzrə Milli İdarəsi məlumat yayıb.

Bu arada, Çinin Tibet Muxtar Bölgəsində Nepalda baş verən daşqınlar nəticəsində ölənlərin sayının 16-ya çatdığı bildirilib.

### Qəzzada HƏMAS-ın komandirlərindən biri öldürülüb



İsrail ordusunun Qəzza zolağına endirdiyi hava zərbəsi nəticəsində HƏMAS-ın komandirlərindən biri olan Ömər Məhəmməd Rüşdi əs-Sərrac öldürülüb.

Bu barədə İsrail ordusu məlumat yayıb.

Bildirildiyinə görə, o, HƏMAS hərəkatının hərbi qanadının komandiri olub.

Hücum zamanı HƏMAS-ın bir döyüşçüsünün də öldürüldüyü bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Azərbaycan Kubokunda 97 boksçu mübarizə aparacaq




Kadet boksçular (U-15) arasında Azərbaycan Kuboku keçiriləcək.

Sentyabrın 1-də start götürəcək yarışda zona birinciliklərinin final mərhələsində fərqlənən idmançılar güclərini yoxlayacaqlar.

U-15 Azərbaycan kubokuna 39 komandanın 97 boksçusu qatılacaq. 17 çəki dərəcəsində 4 gün davam edəcək yarışın qalibləri Avropa çempionatında ölkəmizi təmsil edəcəklər.

Qeyd edək ki, U-15 Avropa çempionatı oktyabrda Trabzonda təşkil olunacaq.

### Azərbaycanı Avropa çempionatında 14 cüdoçu təmsil edəcək




Sentyabrın 3–6-da Monteneqronun paytaxtı Podqoritsada cüdo üzrə gənclər arasında Avropa çempionatı keçiriləcək.

Azərbaycan qitə yarışında 10 çəki dərəcəsində 14 idmançı (9 oğlan, 5 qız) ilə təmsil olunacaq.

Kollektivə gənc oğlanlardan ibarət yığmanın baş məşqçisi Rüstəm Alimli, məşqçilər Elxan Rəcəbli, Əbdülhəqq Rəsullu, qadınlardan ibarət yığmanın baş məşqçisi Amina Abdellatif və böyük məşqçi Saşa Herkenrat-Vimar rəhbərlik edəcək.

Gənclər arasında Avropa çempionatında 44 ölkədən 410 cüdoçu (226 oğlan, 184 qız) mübarizə aparacaq.

### "Liverpul" Fransa millisinin futbolçusunu transfer edib




İngiltərənin "Liverpul" klubu Fransa millisinin və PSJ-nin vingeri Bredli Barkolanı transfer edib.

23 yaşlı futbolçu Mersisayd təmsilçisi ilə uzunmüddətli müqavilə imzalayıb.

Klub transferin maliyyə detallarını açıqlamasa da, Britaniya mediasının məlumatına görə, keçidin ümumi məbləği təxminən 120 milyon funt sterlinq təşkil edib.

Qeyd edək ki, Bredli Barkola 2023-cü ildən PSJ-nin formasını geyinirdi.

**AZƏRTAC-ın materialları əsasında**

Tibb xidməti leytenantı Əsədzadə Turqut Qafur oğluna verilmiş MN № 0056646 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Baş gizir Baş gizir Mehrəliyev Səyyad Bahadır oğluna verilmiş SQ № 0025011 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | Emil MURADLI | Lisenziya № 361 Sifariş № 723 Nüsxə 3653 |